


# Babamı xatırlarkən

Səma MUĞANNA

Həyat necə də qəribədir... İnsan nə etməsindən asılı olmayaraq, heç vaxt dayanmır, zamandakı səyahətinə davam edir. Həyat xəyalların, möcüzələrin beşiyidir...

Biri var idi, biri yox idi. Altı nəfərdən ibarət bir ailə var idi. Bu ailədə bir balaca qız və qardaşı var idi. Bu qız hər şeylə maraqlanar, səyahət etməyi çox sevərdi.

Günlər keçdi. Bir gün balaca qız həyətə çıxanda göy üzünü qara buludlar aldı. Balaca qız çox qorxdu, qışqırdı. Bu səsi eşidən evdəkilər həyətə çıxdılar və təəccübləndilər.

* * *

Dörd gün keçdi. Birdən ailənin ağsaqqalı babanın halı dəyişdi. Evdəkilər nə qədər çalışsalar da... Ehh... Nə isə...

O gündən balaca qızın çöhrəsini qara buludlar bürüdü... Neçə gün məktəbə belə getmədi... Danışmadı... Səssizliyə büründü...

Bir gün babasının stolunun siyirməsində bir zərf gördü. O, zərfi açdı, içərisində bir məktub və bir şəkil var idi... Bu şəkildə EYSARIN – babanın şəkli təsvir olunmuşdu. Əlində saz var idi. O, məktubunda bunları yazmışdı: “Əziz balaca qızım... Məndən narahat olma... Vaxt gəldikdə mən yenə geri qayıdacağam. Sadəcə, bir az gözlə...”

Balaca qız bu sözlərdən həyəcanlandı... Bir neçə gün fikirli gəzdi...Və həmin gün gəlib çatdı. Birdən onun qarşısına bir qaranlıq yol çıxdı. Bu yol çox uzun idi. Amma balaca qız həmin o qaranqlıqdan çıxdı və bir işıqlı yerə gəldi. Orada babasını gördü... O qədər sevincli idi ki, bilmirdi, nə etsin... Babası ilə söhbətləşdi. Baba dedi:



– Mənim balaca nəvəm! Məndən narahat olma. Vaxt çatanda gələcəyəm... İndi, sadəcə, HAQQ DÜNYASINDAyam. Məndən heç biriniz narahat qalmayın...

Və bunu deyərək əlində saz çala-çala göylərə qalxdı... Baba o andan tarixlərdə qaldı....

* * \D*

Babamı düşündükcə xatirələr yaddaşımı döyəcləyir. Yolunu gözlədikcə elə bil yer üzü daha da geri çəkilir. Günəş gedir, bulud gəlir. Düzdür, kiçik yaşlarımda bunları anlaya bilmirdim. O yaşlarımda anlamasam da, indi müqəddəs sözlərini, çətin yollarını düşünə bilirəm. Babam İstiqlal Ordenli Xalq yazıçısı olub. Onun əsərləri, povestləri çox möhtəşəmdir. Hər cümləsinin bir anlamı, bir sirri var. Elə bunlara görə də mən hiss edirəm ki, indi babam getdiyi o uzaqlarda özünü çox rahat hiss edir. Çünki burada insanlara sözünü deməyi bacarmışdı.

Bir gün göy üzünə baxdım, xəyalımda babamla söhbətləşdik.

– Baba, haradasan?

– Buradayam, qızım.

– Baba, hara getmisən?

– Sakit ol, qızım. Mən, sadəcə, haqq dünyasına qovuşmuşam.

– Baba, bizə kömək edə biləcəksən?

– Əlbəttə, qızım.

Sonra babamla bir az Nəsimi, onun gözəl kəlamları haqqında söhbətləşdik.

Necə deyirdi Nəsimi:

Səni bu hüsnü-camalü, kamal ilə görüb,
Qorxdular Həqq deməyə, döndülər, İnsan dedilər.

Sonra babamdan ‘’Kollu Koxa”nın mənasını soruşdum. Qulağımda dua kimi səsləndi: “Ey insanlar, kamilləşin! Cahil olmayın! Bu, sizə daha da güc verəcək! Həyat zəhmətdir, sınaqdır. Bu sınaqdan da çıxmaq olar! Yetər ki, onların qədrini bilək!”